# ÖZÜ DƏ İŞIQ, SÖZÜ DƏ İŞIQ

...Ədəbiyyatın ədəbi dünyasına lirik şeirlərilə daxil olan Xuraman adlı, Muradova soyadlı şairəni şəxsən tanımasam da, sözünü tanıdım. Onun şeirlərindən boylanan Qarabağımızı, Şuşamızı, o taylı, bu taylı Azərbaycanımızı gördüm, hisslərinin, duyğularının misralara ilmələr kimi hörüldüyünü duydum və o dəqiqə də hiss elədim ki, ürəyi ilahi duyğularla çırpınan şairənin «Sənə məktub yazacam» kitabının ovsununa düşmüşəm. Axı söz ovsunundan güclü ovsun yoxdur. Kitabda yer almış şeirlər suçəkən kimi məni özünə çəkdikcə, zərgər dəqiqliyilə cilalanmış sözlərin, misraların cazibəsindən, düşdüyüm ovsundan asanlıqla çıxa bilməyəcəyimi anladım. Onu da anladım ki, könül çırpıntılarını ilmə-ilmə misralara hörən, hər misranın üstündə yaz qarı kimi «əriyən», sözü «bişirməmiş» şeirə gətirməyən Xuraman xanımın daxili dünyasında nə varsa, sözlə ifadəsində duyulur. Onun daxili dünyası ağappaq işığa bürünüb. Bu işıqda Tomiris şücaətli, Xurşudbanu Natəvan duyğulu, Nigar qeyrətli, Həcər hünərli bir xanım gördüm. Onun saf dünyasında halallıq, düzlük, xeyirxahlıq, Vətənə, yurd yerlərinə□ülvi bir məhəbbət gördüm, şəhid ailələrinin, qazilərin, əsgər və zabitlərin sonsuz ehtiram bəslədiyi kişi qeyrətli bir türk xatunu gördüm. Həm də gördüm ki, dünyamız onun kimi yaxşı insanlara və halal sözlə dolu ürəklərə möhtacdır. Və mən deyərdim ki, Xuraman xanım həm vətəndaş-şairə, həm xeyriyyəçi, həm də ürəyi yaxşılıq etmək üçün çırpınan bir sahibkarqadın kimi Xan qızı Natəvanın ən böyük davamçılarından biridir.




Xuraman xanım öncə mehriban, qayğıkeş anadır, millətə, Vətənə, millətə şərəflə xidmət edən sahibkar qadındır, sonra söz adamıdır. Onun həssas, kövrək ürəyi var. Hər bir şeiri qiyməti olmayan Tanrı payıdır. Ürəyinin diqtəsilə şeirlər yazan, poeziya aləmində yeni cığırdaşlardan biri olan, insanlara yaxşılıq edən, yıxılanın qolundan tutan Xuraman Muradova həm şairə kimi, həm də bir türk xatunu kimi türk dünyasının fəxr ediləsi, öyünüləsi ziyalılarından biridir. Ümid qapısı həmişə açıq olan, heç kimi naümid geri qaytarmayan Xuraman xanım həm xeyirxahlığı, həm də şeirləri ilə ürəklərə sevinc duyğuları səpələyir.

İç dünyası şükranlıqla dolu olan Xuraman xanımın şeirlərini oxuduqca möhtəşəm və qüdrətli şair istedadının şahidi olurdum. Həm də sözlərdən çələng hörüb bizlərə ərmağan edən Xuraman xanımın hər misrasında inci kimi düzülən sözləri canlı səs kimi eşidirdim. Həm də düşünürdüm ki, qələmindən və ürəyindən nur tökülən, üzündən xeyirxahlıq təbəssümü əskik olmayan, ürəksiz bir kəlmə də yazmayan şairənin şeirlərindən mehribanlığı, sədaqəti, xeyirxahlığı, vətənpərvərliyi, yurdsevərliyi, sevib-sevilməyi□ öyrənmək mümkündür. O gözəl şairənin, o qayğıkeş insanın şeirlərində iddiasız və təmənnasız yaşamağı, səbirli, təmkinli, ədalətli və insaflı olmağı öyrənmək mümkündür. O, xalqın hiss-həyacanını ifadə etdiyi üçün xalqın ürəyindən xəbər verən şeirlər yazır. Məhz ona görə də onun hər bir şeiri ədəbiyyat nümunələridir, hər bir şeiri ürəyinin səsidir. Bu şeirlər adamı tənhalıqdan qurtarır. Hər kəs onun şeirlərində özünü tapır və tapdığına sevinir.

Xuraman xanımın şeirləri musiqi olmağa can atır və olur da. «Sənə məktub yazacam», «Səndən elə küsərəm» və başqa şeirlərinə əbəs yerə musiqi bəstələnməyib ki...

Mən elə küsərəm səndən əzizim,
Durnalar ağlayar göyün üzündə.
Gözü yaşlı qalan bu sevdamızın,
Zülmətə çevrilər dünya gözündə.

Xuraman xanımın hər bir şeirində sözün gözəlliyinə, məna dərinliyinə, döyüşkən ruhuna, bədii təsvirin və təxəyyülün sonsuzluğuna heyrət edirdim. Həm də düşünürdüm ki, Xuraman xanımın poeziyası həm ədəbiyyatın, həm də ədəbiyyatın tarixinə yazılacaq. Şairin şeirlərində milli yanğı var, ölməz ruh var, gələcəyə söykənmiş düşüncə var, xalqa, zamana xidmət var. Onun var-dövləti, sərvəti qələmidi, ilk kitabı - «Sənə məktub yazacam» şeirlər toplusu da özünü təsdiqidi. Kitabı yarpaq-yarpaq çevirib oxuduqca yurd yerlərimiz kinolenti kimi gözlərim önündən gəlib keçirdi, Azərbaycan-Türkiyə qardaşlığı ürəyimi işıq selinə qərq edirdi, Xocalı harayı iç dünyamda əks-səda verirdi. 44 günlük Vətən müharibəsində müzəffər ordumuzun möhtəşəm hərbi uğurları məni bir daha qürurlandırırdı.

Xuraman xanım həm əsl Azərbaycan qadını, həm gözəl şairə, həm əsl ziyalı, həm də xeyirxah bir insan kimi ürəklərdə özünə möhtəşəm bir abidə ucalda bilib. Gələcək nəsillər onun şeirlərilə birlikdə xeyirxahlığından, yaxşı əməllərindən, Allaha xoş gələn işlərindən... fəxrlə söhbət açacaq, onunla qürur duyacaqlar.

O, humanist adamdır, xeyriyyəçidir, ürəyi bulaq suyu kimi dupdurudur. Onun özü də işıqdı, sözü də. Sözünün də ölməzliyinə söz yoxdur. Sözü ölməyən şairənin özü də ölməzdir. Çünki şairi yaşadan şeirləridir. Xuraman xanımın şeirləri onu həmişə yaşadacaq, onu həm də savab işləri yaşadacaq□

Bədii-poetik xüsusiyyətləri baxımından diqqəti daha çox cəlb edən Xuraman Muradovanın poeziyasında səmimiyyət və obrazlılıq onun şeirlərinin döyünən ürəyidir. Bəli, səmimiyyət və obrazlılıq poeziyanı poeziya edir. Bu mənada ürəyinə imam möhürü vurulan şairə bacımız «Sənə məktub yazacam» kitabıyla qaranlıq dünyamıza bir damla nur ələdi. Bir damla nurla qaranlıq dünyamız işıqlandı.

Xuraman xanım həm də xeyirxah işlərilə, xoş əməllərilə deyir ki, «Hələ yaşamağa dəyər. Hələ insanlıq, xeyirxahlıq, yaxşılıq ölməyib, yaşayır». - Bəli, nə qədər ki, insanlığı, yaxşılığı yaşadan onun kimi gözəl insanlar var, deməli, yaşamağa dəyər.

Yazıya söz ardı: Xuraman xanımın «İmza» nəşriyyatında çap olunmuş (Bakı, 2023) «Sənə məktub yazacam» kitabını böyük maraqla, həyacanla oxudum. «İmza» nəşrlər evinin direktoru Səbuhi Aslanın mənə dediyi sözləri xatırladım: «Dəyərli, işıqlı bir ziyalı xanımın şeirlər kitabıdır. Oxu və onun poetik dünyası ilə tanış ol!» - Oxudum və tanış oldum. Xuraman Muradova kimi istedadlı bir şairə ilə tanış olmadığıma görə təəssüf hissi keçirsəm də, düşündüm ki, şairənin şeirlərilə tanışlıq elə onun özüylə tanışlıq deyilmi! Bu tanışlığa görə «İmza» nəşrlər evinin direktoru dostum Səbuhi müəllimə təşəkkür edirəm.

«Mən Allah yolunda haqqın elçisi» deyən şairə haqlıdır. Onun haqq olması gördüyü savab işlərdən, tarixə yazdığı xeyirxah əməllərdən bəllidir.

Və ən nəhayət, yazmaq istədiklərimin yüzdə birini belə bir qəzet səhifəsinə yerləşdirmək mümkün olmadığına görə, təəssüf hissi keçirmədim. Çünki istedadlı şairə, xeyirxah insan, işıqlı adam, dəyərli ziyalı, əsl türk xatunu kimi sevilən, yüzlərlə ürəyə yol tapan, xalqın sevimlisinə çevrilən Xuraman Muradova haqqında - eləcə də onun yaxşı və xoş əməlləri, gördüyü işlər haqqında essevari düşüncələrimi qələmə almaq istəyirəm. Bu «sirri» açdım ki, Xuraman xanım da xəbərdar olsun. Bəlkə razı olmadı!

***Vaqif İSAQOĞLU,***
***yazıçı-publisist,***
***Prezident mükafatçısı***